AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

# 9 FEVRAL 2020

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR




MÜŞAHİDƏÇİLƏR ÜÇÜN

# YADDAŞ

“Müşahidəçilər üçün Yaddaş” Mərkəzi Seçki Komissiyası tərəfindən işlənib hazırlanmışdır.

# Y A D D A Ş

**Bu kitabça Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə yerli və beynəlxalq (xarici) müşahidəçilərin istifadəsi üçün hazırlanıb.**

| | |
|---|---|
| • Seçkilər günü: | 9 fevral 2020-ci il |
| a) səsvermə başlayır: | saat 08:00-da |
| b) səsvermə başa çatır: | saat 19:00-da |

- Aktiv seçki hüququna malik olan, seçkilərin keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşı seçkilərdə müşahidəçi qismində iştirak edə bilər.
- Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər müşahidəçi ola bilməzlər.
- Müşahidəçi Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası və ya dairə seçki komissiyası tərəfindən qeydə alınır və ona müvafiq lövhəcik verilir. Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçən müşahidəçi respublikanın bütün ərazisində, dairə seçki komissiyasında qeydiyyatdan keçən müşahidəçi isə qeydə alındığı seçki dairəsinin ərazisində müşahidə apara bilər.
- Səsvermə gününədək seçki komissiyasının iclaslarını müşahidə etmək istəyən müşahidəçi Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə xüsusi icazə almalıdır. Belə müşahidəçinin səsvermə günü seçki komissiyasının iclaslarını müşahidə etməsi üçün xüsusi icazə tələb olunmur.
- Beynəlxalq müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər.

**YADDA SAXLA!**

- ✓ *Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusunu ala bilməzlər.*
- ✓ *Beynəlxalq müşahidəçi Azərbaycan Respublikasının ərazisində olduğu müddətdə dövlətin mühafizəsi altına alınır. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları ona zəruri köməklik göstərməyə borcludurlar.*
- ✓ *Beynəlxalq müşahidəçi zərurət olduqda, tərcüməçi ilə təmin edilir.*

Müşahidəçi seçki qanunvericiliyinin tələblərinə riayət etməli və müşahidə apararkən müvafiq lövhəcik onun üzərində olmalıdır.

**DİQQƏT!**

*Lövhəcik şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə etibarlı sayılır.*

## Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan bəzi əsas anlayışlar:

**seçki hüququ** – Azərbaycan Respublikası Milli Məclisinin deputatını seçmək və seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı təşviqatda, seçki komissiyalarının işində, seçkilərin keçirilməsinin müşahidəsində (seçkilərin nəticələrinin müəyyən edilməsi də daxil olmaqla), səsvermədə və digər seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək;

**seciçi** - seçki hüququna malik şəxs;

**seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslər** – deputatlığa namizəd, qeydə alınmış namizəd, siyasi partiyalar, siyasi partiyaların bloku, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, yerli və beynəlxalq

(xarici) müşahidəçilər, seçki komissiyalarının məşvərətçi səs hüquqlu üzvləri, kütləvi informasiya vasitələrinin nümayəndələri;

**namizəd** – Milli Məclisin deputatı seçilmək üçün Seçki Məcəlləsinə uyğun olaraq namizədliyi irəli sürülmüş şəxs;

**qeydə alınmış namizəd** – Milli Məclisin deputatı seçilmək üçün Seçki Məcəlləsinə uyğun olaraq müvafiq seçki komissiyası tərəfindən qeydə alınmış şəxs;

**siyasi partiyalar bloku** – seçkilərdə birgə iştirak etmək üçün iki və ya daha çox siyasi partiyanın yaratdığı və seçkilər zamanı siyasi partiyalarla eyni hüquqa malik olan blok;

**vəkil edilmiş şəxs** – qeydə alınmış namizəd, namizədləri qeydə alınmış siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən təyin edilən, müşahidəçi hüququna malik olan, qeydə alınmış namizədin seçilməsi üçün təşviqat aparan və digər bu cür fəaliyyətlə məşğul olan şəxs;

**müşahidə** – məlumatların yığılması və onların qiymətləndirilməsi əsasında ekspert rəyinin hazırlanması;

**müşahidəçi** – seçkilərin keçirilməsi zamanı Mərkəzi Seçki Komissiyası və ya dairə seçki komissiyası tərəfindən seçki prosesini müşahidə etmək üçün qeydə alınmış şəxs;

**beynəlxalq (xarici) müşahidəçi** – seçkiləri müşahidə etmək hüququnu almış və xarici dövləti, xarici və ya beynəlxalq təşkilatı təmsil edən şəxs;

**seçici siyahıları** – müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahıları;

**seçkiqabağı təşviqat** – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştirak etməyə, bu və ya digər namizədin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti;

**təşviqat materialları** – seçki kampaniyası zamanı dərc edilməsi və ya digər üsullarla yayılması nəzərdə tutulan seçkiqabağı təşviqata həsr edilmiş çap, audiovizual və digər materiallar.

**Seçkiqabağı təşviqatın aparılması üsulları:**

- kütləvi informasiya vasitələri ilə;
- kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi yolu ilə;
- çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
- qanunla qadağan edilməyən digər üsullarla.

**Müşahidə aparılmasının prinsipləri:**

– seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;
– müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;
– müşahidə açıq aparılmalıdır;
– müşahidənin yekunları faktlara əsaslanmalıdır.

**Müşahidəçilər aşağıdakı şərtlərə riayət etməlidirlər:**

- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;*
- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, siyasi partiyaların və siyasi partiyalar bloklarının seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq, onları məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səs vermədən çəkindirməyə sövq etməmək;*

- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək, onlarla əməkdaşlıq etmək;*
- *seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səsvermə və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu, böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materialları yaymamaq;*
- *dövlət, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək.*

**DİQQƏT!**

*Yuxarıda göstərilən tələblərin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan məsuliyyətə səbəb olur.*

**YADDA SAXLA!**

✓ *Müşahidəçi aşkar etdiyi faktları müəyyən olunmuş qaydada və müvafiq akt tərtib etməklə rəsmiləşdirməlidir.*

✓ *Müşahidəçi imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir.*

✓ *Müşahidəçilər müşahidənin yekunlarına dair rəylərini müvafiq seçki komissiyasının sədrinə təqdim etdikdə, həmin rəy səsvermənin nəticələri haqqında protokola əlavə edilməlidir.*

**Müşahidəçilərin aşağıdakı hüquqları vardır:**

- səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
- səsvermə günü seçki komissiyasının iclaslarını müşahidə etmək;
- seçici siyahıları ilə tanış olmaq;
- seçki məntəqəsi açıq elan edilməzdən əvvəl məntəqə seçki komissiyasının icra etməli olduğu hərəkətləri müşahidə etmək;
- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə və ya onu əvəz edən şəxsə müraciət etmək;
- seçicilərin barmaqlarına gözə görünməyən mürəkkəbin çilənməsini və onlara seçki bülletenlərinin verilməsini müşahidə etmək;
- seçicilərin səsvermə kabinəsinə daxil olmalarını və oranı tərk etmələrini, seçki bülletenlərinin seçki qutusuna salınmasını müşahidə etmək;
- səsvermə otağından kənarda səsvermə prosesini müşahidə etmək, eyni zamanda daşınan seçki qutusunu müşayiət etmək;
- səs vermiş seçicilərin sayını hesablamaq;
- seçki qutularından çıxmış seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasını müşahidə etmək;
- səslərin hesablanması və səsvermənin nəticələri haqqında protokolun doldurulmasını müşahidə etmək;
- müşahidənin nəticələrinə dair rəyin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- seçki komissiyalarının sənədlərinin surətlərini qanunauyğun çıxarmaq və ya almaq;
- seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- seçki sənədlərinin yuxarı seçki komissiyalarına göndərilməsini müşahidə etmək.

**YADDA SAXLA!**

✓ *Müşahidəçilərdən seçki məntəqəsinə gələcəkləri barədə məntəqə seçki komissiyalarını qabaqcadan xəbərdar etmələri tələb olunmur.*

✓ *Seçki günü səsvermə otağında olan və seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə edən şəxslərin siyahısı məntəqə seçki komissiyasının katibi tərəfindən aparılır*.

**Müşahidəçilərə aşağıdakı hərəkətlər qadağan edilir:**

- seçicilərə seçki bülletenləri vermək;
- seçicinin barmağında gözə görünməyən mürəkkəbin olub-olmamasını ultrabənövşəyi lampa ilə yoxlamaq və ya seçicinin barmağını mürəkkəblə işarələmək;
- seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;
- seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
- seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə səslərin hesablanmasında birbaşa iştirak etmək;
- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
- seçicinin seçiminə təsir etmək və ya gizli səsverməni pozmaq;
- seçicilər arasında təşviqat aparmaq;
- bu və ya digər namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun lehinə, yaxud əleyhinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);
- qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək.

**DİQQƏT!**

*Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.*

Müşahidəçinin səlahiyyət müddəti onun qeydə alındığı gündən başlayır və səsvermənin nəticələri rəsmi dərc edildiyi gün bitir.

**YADDA SAXLA!**

*Seçicinin öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və gizli səsvermənin qaydalarını pozan yerli müşahidəçi məntəqə seçki komissiyalarının qərarı ilə seçki məntəqəsindən çıxarılır. Həmin müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.*

Müşahidəçilərin səlahiyyətlərinə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda və qaydada da xitam verilə bilər.